Ədəbiyyat QƏZETİ

# "Körpü"dən başlanan yollar

## Səyyad Aran - 65



Vaqif YUSİFLİ

**Səyyad Aranın təsvir etdiyi lövhələrin məkanı, qaynağı kənddir. Bu kəndin konkret bir adı, ünvanı olmasa da, təsvirlərin hədəfindən, detalların konkretliyindən hiss edirsən ki, bu Aran kəndidir.**



Səyyad Aran... İmişlinin Qaradonlu kəndində dünyaya göz açan bu gözəl insanın əsli Qərbi Azərbaycandandır. Amma bütün varlığı ilə Aran torpağına - İmişliyə bağlıdır. Burada orta məktəb bitirmiş, sonra Universitetin filologiya fakültəsində təhsil almış, hərbi xidmətdə olmuş, uzun illər İmişlidə müəllim işləmiş, Bakıya köçməmişdən əvvəl iki il rayonda təhsil şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Elə həyat tərzi, xasiyyəti, hamıya münasibətilə, çıxışı, danışığı ilə də bizlərə bir *müəllim* obrazını xatırladır.

Amma indi o, müəllim deyil, Azərbayjanda bir siyasətçi kimi tanınır. Bakıya köçəndən sonra o, Yeni Azərbaycan partiyası fəallarına qoşuldu, bu partiyanın yaradıcılarından-qurucularından biri oldu. Müəllimliyindən irəli gələn işgüzarlıq, insanlarla daimi ünsiyyət səriştəsi siyasətçi Səyyad Aranın fəaliyyətində də hiss olundu. Yeni yaranmış (söhbət 90-cı illərdən gedir) pariyanın nüfuzunu qaldırmaq, ulu öndərin ideyalarını həyata keçirmək yolunda qızğın fəaliyyəti onun həyat proqramına çevrildi. Səyyad müəllim Milli Məclisin deputatı seçildi, sonra Türkiyədə konsul vəzifəsində çalışdı, sonra yenə Azərbaycana qayıtdı, indi Dini Qurumlar üzrə təşkilatda sədrin birinci müavinidir.

Amma biz ədəbiyyat adamları Səyyad Aranı daha çox yazıçı kimi tanıyırıq. Yaradıcılığa hələ İmişlidə müəllim işləyərkən başlayıb və ilk hekayəsini 1978-ci ildə "Ulduz" jurnalında çap etdirib. İlk kitabı "Körpü" (səksəninci illərin əvvəllərində) ilə ədəbiyyata bir körpü salmaq istəyib. Deyərdim ki, istəyinə çatıb. Müasir nəsrimizdə Səyyad Aranın da öz dəsti-xətti var, yol aldığı cığırı bələdləmək mümkündür.

Səyyad Aranın bir neçə hekayələr, povestlər kitabı çapdan çıxıb ("Soyuq günəş", "Sandıqda qalan muştuluq", bu günlərdə isə "Sazaq").

Ədəbiyyatda "kənd nəsri", "şəhər nəsri" ifadələri işlənir, təbii ki, şərti mənada. Amma burada bir həqiqəti unutmaq olmazgərək kəndi, onun özünəməxsus koloritini, məişətini, adət-ənənələrini, orada yaşayan insanların psixologiyasını, həyat tərzini yaxşı biləsən ki, səni kəndi duyan yazıçı kimi tanısınlar. Süleyman Rəhimov, Əli Vəliyev, Sabir Əhmədli, İsa Hüseynov, Mövlud Süleymanlı, Məmməd Oruc kimi...Səyyad Aranı da bu sıraya daxil etmək olar. Çünki onun hekayə və povestlərində də biz Aran kəndlərinin, orada yaşayan insanların canlı, koloritli obrazları ilə qarşılaşırıq.Onun təsvir etdiyi hər bir hadisədə kənd qoxusu gəlir. "Həyat zülmətdi. Göydə bir dənə də ulduz yoxdu. Kəndin alaseyrək işıqları, bir də pəyədəki inəyin, qoyun-quzunun həniri adamın qorxusunu götürür. Həşimgilin olacağı tərəf lap vahiməlidir. Yiyəsizlik olduğundan gündüzlər it-pişik, gecələr tülkü-çaqqal yığnağıdır. Həşimin atasını arxın başında traktoru aşırdıb sındırdığından danladılar: "Qolçomaq fitvasına uyub Sovet hökumətinin texnikasına düşmən münasibətinə və təxribatçılığa görə" - bu sətirlər Səyyad müəllimin "Təmizlik kağızı" hekayəsindəndir. Kiçik bir parçada kəndə məxsus cizgilər canlanır.

Səyyad Aran hekayəçidir.

Hekayə nəsrin həcm etibarilə kiçik janrı sayılsa da, onun bir çox böyük həqiqətləri uğurla öz "kiçik ərazisinə" sığışdıra bilir. Dünyanın Mopassan, Çexov, Mirzə Cəlil kimi dahi hekayə ustaları olub və Azərbaycan ədəbiyyatına gəlincə, Mirzə Cəlildən sonra istedadlı hekayəçilər nəsli və gözəl hekayələr meydana gəldi. Səyyad Aran da bu nəslin axırıncı nümayəndələrindəndir ki, o ənənələri davam etdirir. O, hekayələrində üç əsas məsələni daha qabarıq göstərməyə can atır. Birincisi; təsvir etdiyi obrazlar mümkün qədər real və görümlü olsun, o obrazlar həyatdan gəlsin ədəbiyyata, ədəbiyyatdan gəlməsin. İkincisi, kəndlini kəndli dilində danışdırsın. Hər bir təsvir koloritli olsun, hiss edəsən ki, bura kənddir, obraz canlı xalq dilində danışır. Süni, qurama dillə danışmır. Üçüncüsü, kəndin ictimai həyatını, sosial, məişət qayğılarını nəzərə çarpdırsın. Bu baxımdan Səyyad müəllimin "Təmizlik kağızı" adlı hekayəsini onun ən uğurlu hekayəsi saymaq olar. Hekayədə təsvir olunan hadisələr keçən əsrin 30-40-cı illərində cərəyan edir.37-ci ilin repressiya tufanı heç bir vaxt unudula bilməz. Şəhərdə, Bakıda olduğu kimi, Azərbaycanın rayon və kəndlərində də kütləvi "təmizləmə əməliyyatı" həyata keçirilirdi. Heç bir günahı olmayan adamlar tutulur, həbs edilir, "xalq düşməni" adıyla damğalanırdılar. Tutulanların ailələri isə tutulanlardan da müsibətli günlər keçirirdilər, həmişə qorxu altında yaşayırdılar. Onları yaşadan bircə qırıq ümid idi: "Yerə-göyə sığmayan bu müsibətlər korun-korun közərən ocaqların daşına yazılmışdı. Bütün bunlarla bərabər hər gələn gecənin mübhəm qaranlığında kövrək bir ümid də yaşayırdı. Tavanın çatının süzülən və divara hörülmüş sınıq güzgüdə bərq vuran Ay işığı əbədi, ölməyən, sönməyən bir ümid. "Bəlkə sabah? Kənd də iki cəbhəyə bölünüb: bir tərəfdə "təmiz" adamlar, yəni Stalini, Lenini, onların sözlərini dilində əzbərə çevirənlər, bir də "xalq düşmənlərinin" ailələri, oğul-qızları. Mübarizə burda da davam edir və atanın təmizlik-bəraət kağızının intizarında olan Eldar "düşmən" tərəflə "vuruşda" həlak olur. Qeyd edək ki, Səyyad müəllim bu hekayədə sanki 37-ci ilin və ondan sonrakı illərin hadisələrini yaşayırmış kimi qələmə alıb.

Səyyad müəllimin hekayə və povestlərində bir silsilə kənd qocalarının obrazları yaradılıb. O, "Sazaq" hekayəsində ömür-gün yollarının sonuna gəlib çatan dörd ağsaqqalın görüşlərini, ötən günlərlə bağlı xatirələrini dilə gətirir. Otururlar, domino oynayırlar, keçmişdən söz açırlar, zarafatlaşırlar. Və birdən məlum olur ki, o ağsaqqallardan biri - Cəfər kişi xəstələnib. Qocalar intizardadılar. Cəfər kişi isə..."Qəfil hamının içini canavar dili kimi sərt bir sazaq yalayıb keçdi. Bir dəstə qara paltarlı, qara kəlağayılı arvad Cəfərgilə tərəf diklənirdilər. Al günəşin altında dördü də büzüşərək xəfif-xəfif titrəyirdilər. Elə bil qış geri qayıtmışdı, üşüyürdülər". Təbii üşüntülərdir. Çünki qocalıqdan ölümə bir addımdı.

Öncə qeyd etdik ki, Səyyad Aranın təsvir etdiyi lövhələrin məkanı, qaynağı kənddir.Bu kəndin konkret bir adı, ünvanı olmasa da, təsvirlərin hədəfindən, detalların konkretliyindən hiss edirsən ki, bu Aran kəndidir. Bu fikri vaxtilə Səyyad Aranın "Soyuq günəş" adlı kitabına yazdığım kiçik resenziyada söyləmişdim və indi də o fikirdəyəm. Yeri gəlmişkən, qeyd edim ki, Səyyad Aranın həmin o kitabındakı on hekayə və iki kiçik povesti duyumlu müşahidələrdən, həyati hadisələrdən yaranmışdı.

S.Aranın təsvir etdiyi kənd və insanlar əsasən 70-80 və 90-cı illərə aiddir. Bu hekayələrdə təsvir edilən obrazlar sadə və adi insanlardır. Müstəsna qəhrəmanlar tapa bilməzsən. "Əfəl" hekayəsinin qəhrəmanı kənd adamlarının ağıldan kəm hesab etdikləri İbişdir. "Bu tərəflərdə İbişi tanımayan yoxdur. Hamı bilir ki, uşaqlıqda hasardan yıxılıb, "ağlı başından çıxıb". Buna da səbəb qonşularının şipşirin, baxanda nəinki İbişin, hətta böyük-böyük adamların da ağzının suyunu axıdan şaftalı ağacı olmuşdu. Qohum-qardaş, dost-tanış, bütün kənd əl-ayağa düşüb əlac axtardılar. "körpədi, yazıqdı, kasıbdı". Doxturların böyüyü rəhmətlik Siyab Rüstəmovdan tutmuş qələmi ağır, balta, ülgüc mollalaracan nə qədər müalicə, dava-dərman edilsə də, dualar yazıldısa da, İbişin başından çıxan ağlını tapıb yerinə qoymaq mümkün olmadı. O vaxtdan İbiş olmuşdu kəndin məzəsi, zarafat selbəsi".

Bu İbiş kolxoz sədrinin bacısı qızıyla dostluq edir. Ülkər hər gün ona cürbəcür konfet, şokolad gətirir, İbiş isə əvəzində onun üçün naxışlı çubuqlar yonur, kəpənək tutur, meşədən quş yumurtası tapır, çaydan alabəzək xırda balıqlar tutub gətirir, bir sözlə, onlar böyüklərin münasibətindən asılı olmayaraq mehrlərini bir-birinə salmışlar. Sədrin adamları və Ülkərin qohumları onu hər vasitə ilə İbişdən ayrı salmağa çalışırlar. Və buna nail olurlar. Müəllif bu ayrılığı çox təbii, ürəyi titrədəcək dərəcədə təsvir edir. "Uzun müddət Ülkəri sakitləşdirə bilmədilər. Xeyli əziyyətdən sonra onu birtəhər yatızdırdılar... İbiş... nəmli gözlərini böyük və işıqlı pəncərələrə dikib, kal və yoğun səsi ilə neçə vaxt bir yerdə xoş günlər keçirdiyi, ağlı kəsəndən bəri ona ən əziz və doğma olan oyundaşını səslədi: - Ülkər, ay Ülkər... hardasan? Sabah ora gələssən?"

Bu hekayə kövrək notlar üzərində qurulub. Ümumiyyətlə, S.Aranın hekayələrində təsvir olunan hadisələr, göstərilən həyat lövhələri öz dramatikliyi ilə diqqəti cəlb edir. Bu dramatikliyi obrazların təkcə qarşılıqlı münasibətlərində və konflikt doğuran situasiyalarda deyil, həmçinin hadisələrin özünün mahiyyətində də axtarmaq lazımdır. "Ziyahimin peşmançılığı" hekayəsini götürək. Ziyahim kimdir?

Sadə və sadədil bir kənd uşağı. Orta məktəbi təzəcə bitirib.

***O, hekayələrində üç əsas məsələni daha qabarıq göstərməyə can atır. Birincisi; təsvir etdiyi obrazlar mümkün qədər real və görümlü olsun, o obrazlar həyatdan gəlsin ədəbiyyata, ədəbiyyatdan gəlməsin. İkincisi, kəndlini kəndli dilində danışdırsın. Hər bir təsvir koloritli olsun, hiss edəsən ki, bura kənddir, obraz canlı xalq dilində danışır. Süni, qurama dillə danışmır. Üçüncüsü, kəndin ictimai həyatını, sosial, məişət qayğılarını nəzərə çarpdırsın.***

Amma instituta girə bilməyib.Kənddə qalıb atasına, ev-eşiyə kömək edir. Bu gün atasının əvəzinə mal növbətinə yollanır. Hiss olunur ki, bu cavan uşaq yaman darıxır, qəm-qüssədən bağrı çatlayır, arxası üstə çəmənliyə uzanıb hirsini necə soyudacağı haqda fikirləşir. "Dabanları sızım-sızım sızıldadı, özünü götürüb çırpdı yerə. Dizləri göynədi, qarnı sancılandı, ağzına göy ot və quş zımrığı doldu, ürəyi bulana-bulana tüpürdü, yeri-göyü söyüb -söyləndi və axırda çəmənliyə sərələnib sakitləşdi".

Bu təsvirlərdən də aydın hiss olunur ki, Ziyahim daxilən boş deyil, o, nəyəsə can atır, nəyinsə arzusundadır, amma özünü ifadə edə bilmir. Onun daxili aləmi meşəyə gələn bir oğlanla qızın gəlişindən sonra üzə çıxır, daha doğrusu, obrazın "mənəvi pasportu" səhifə-səhifə vərəqlənir. Meşəyə gələn Bəbir mənən cılız və pozğun təbiətli bir cavandır, meşəyə gətirdiyi qız da onun tayıdır. Cavanlar meşədə yeyirlər, içirlər, amma dost ola bilmirlər. Ziyahimın inamı puça çıxır, Bəbir və Elya Ziyahimin onları satacağından şübhəyə düşüb aradan çıxırlar.İnam sarsılır: "İçi göynədi. Yana-yana hönkürdü. Başını əlləri ilə tutub "niyə?", "niyə?" deyərək inildəyirdi... Onu ən çox yandıran aldadılması, hərif yerinə qoyulması, ələ salınmasıydı. "Mən axı ədəbsizlik etmədim, kişi kimi sizi arxayın salmaq üçün özümü görməzliyə, bilməzliyə qoydum... Gördüyümü orda-burda danışıb heç vaxt əskiklik eləmərəm. Adam balası kimi sizə qaynayıb-qarışdım. Nə gördüz ki, inanmadız?"

Hər hansı bir hekayənin yaşarılığını artıran cəhətlər var. Görkəmli yazıçı Mir Cəlal yazırdı ki, "Xarakter bir hadisə, yığcam bir süjet, ümumiləşdirici bir mətləb, müxtəsər, şirin, sadə söyləmə, nəqletmə üsulu, psixoloji dərinlik hekayənin başlıca xüsusiyyətləridir". Bu cəhətləri biz Səyyad Aranın kitabda toplanan bir sıra hekayələrində görə bilərik. "Şeytanın qurbanı" hekayəsində tənha bir qocanın həyatından söz açılır. Bu, Təhməz kişidir. Arvadı təzəcə rəhmətə gedib. Təhməz kişinin üç oğlu var, amma yaxşı işlərdə çalışmalarına baxmayaraq, vecsizdirlər: "Mənim belimdən gələn, sənin halal südünü əmən bu qurumsaqlar böyüyüb kimə oxşadılar, bilmədim!". Qardaşlar öz aralarında atalarının taleyi barədə "məşvərət" aparırlar, amma heç biri atalarını saxlamaq, ona qulluq eləmək vəzifəsini öhdəsinə götürmək istəmir, hərə bir bəhanə gətirir.

Səyyad Aranın ən yaxşı hekayələrindən biri də "Sandıqda qalan muştuluq"dur. Hekayənin qəhrəmanı Dünyamalı qəribə bir talc sahibidir. O, türmədən qayıdır. "Dünyamalı həyatda çox ağır şeylər görmüşdü. Ağlı söz kəsəndə atası öldü. Atasından bir az sonra müharibənin o qanlı-qadalı illərində "çörək" deyə-deyə hamının gözü qarşısında bacısı keçindi. Neçə dəfə milisionerlərin qabağında getdi-gəldi. "tamahına güllə dəymiş", "əclaf", "ikiayaqlı canavar" kimi damğalandı. Firavan və rahat həyata öyrənmiş olduğundan, həbsdə itin əzabını çəkdi, amma bir dəfə də olsun ağlamadı, heç gözləri də yaşarmadı".

Həmin bu Dünyamalı həbsdən qurtulandan sonra ən yaxın dostlarına teleqram vurub ki, gəlirəm. Amma onu kimsə qarşılamır. Görünür, türməyə düşməyi bir əngəl olub. "Hələ heç vaxt kəndi belə səssiz-səmirsiz görməmişdi. Doğrudanmı, bu boyda kənddə bir adam tapılmayacaq ki, onun qabağına çıxsın, bir uşaq olmayacaq ki, qırmızı yelənli yaylığı muştuluq alsın?"

Bəli, Dünyamalı zənnində yanılmır. Onun bu gün gəlməyini hamı bilirdi, amma kimsə onu qarşılamır ki, adı "it dəftəri"nə düşər.

Dünyamalı "dostları"nın vəfasızlığından sonra öz doğulduğu evə, həyətə yaxınlaşır. İlk gördüyü uşaqları olur, amma onu tanımırlar. Bu nisgildən sonra anası və arvadı gəlir, hıçqırıqlar başlanır. "Ayağının altında ölüm, ana! Halal elə... Sənə bir oğulluq eləmədim. Bağışla.."

Təbii hisslərdir və müəllif Dünyamalının psixoloji gərginlik içində necə hisslər keçirdiyini təsvir edir: "Ev-eşikdən burnuna çoxdan unutduğu tanış qoxular - anasının, arvadının, uşaqlarının iyi gəlirdi. Bir də bayaqdan bəri onu girinc edən, neçə gün bundan irəli həbsdən buraxılmasına baxmayaraq indicə, öz yorğan-döşəyinin içindəcə duyduğu azadlığın".

Səyyad Aranın haqqında söz açdığım bu hekayələri sovet dövrü həqiqətlərindən söz açır. Yaşadığı o illərin sevinci, kədəri, nəşəsi, ağrı-acıları və ümumiyyətlə, kəndlə, Aran torpağı ilə bağlı problemlər bu hekayələrdə öz bədii təcəssümünü tapmışdır. "Qarpız", "Körpü", "Külçə", "Gül iyi", "İlin axır çərşənbəsi", "Yay gecəsinin qəziyyəsi", "Ay Simurq quşu" hekayələri o dövrün Aran kəndi barədə müəyyən təsəvvür yaradır.Bu hekayələrin bir məziyyəti də ondadır ki, Səyyad Aranın dili rəvandır, o, heç yerdə pəltəkləmir, həm öz təhkiyəsində, həm də obrazların nitqində səliqəli-sahmanlıdır, dilimizin imkanlarından genbol istifadə edir. Xüsusilə, kənd təbiətinin təsvirlərində özünəməxsusdur.

Səyyad Aranın "Dərs" hekayəsi isə bir neçə il öncə qələmə alınmışdır. Hiss olunur ki, o, bir yazıçı kimi bu günün - son dərəcə mürəkkəb və təzadlı olan çağdaş günümüzün həqiqətlərini təsvir etməyə can atır.Təbii ki, kənddən bəhs edən hekayələrlə "Dərs" tipli hekayələrin fərqi açıq görsənir. "Dərs" hekayəsində artıq dövrün cizgilərini əks etdirən lövhələr canlandırılır. Mürsəl və Səttar... İki dost. Mürsəd təmiz adamdır, illərdən bəri necə yaşayıbsa, o mənəvi sifəti itirmir. Səttar isə yeni dövrün adamıdır, "işgüzarlığı" onu yüksək pillələrə aparıb çıxarıb. Amma nə olsun? Onun "həqiqətləri" təmizlikdən, mənəvi saflıqdan yoğrulmayıb, zəmanənin yaratdığı fürsətdən barınıb.

Bircə arzumuz var ki, Səyyad Aran bu günün həqiqətlərindən daha çox yazsın.

Bu yazının sonunda ömrünün 65 yaşına gəlib çatan Səyyad müəllimi təbrik edək. Ona yeni yaradıcılıq uğurları diləyək...

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 14 yanvar.- S. 19.**